## *Cari ilin birinci yarısının yekunları*

# GƏNCƏ İQTİSADİ YÜKSƏLİŞİN, SOSİAL TƏRƏQQİNİN YENİ MƏRHƏLƏSİNDƏ

**"2017-ci ilin birinci yarısında Gəncə şəhərinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında" Gəncə Şəhər İcra Hakimiyyətində hesabat yığıncağı keçirilmişdir.**

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev** geniş hesabat məruzəsi ilə çıxış edərək bildirdi ki, bu gün həyatımızın bütün sahələrində əldə edilmiş zəngin uğurlar Türk dünyasının fenomeni, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başlanan və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında çağdaş dövrün çağırışlarına uyğun həyata keçirilən islahatların nəticələri və bəhrələridir. Gəncə Şəhər İcra Hakimiyyəti də ölkə Prezidenti cənab İlham Əliyevin siyasi kursunu gündəlik fəaliyyətində rəhbər tutmaqla, şəhərin ictimai-siyasi, sosial-iqtisadi həyatında tərəqqiyə xidmət edən əməli tədbirlər yerinə yetirilir. Gəncə şəhərində də istehsalın artımında, quruculuq-abadlıq işlərinin aparılmasında, önəmli sosial layihələrin sürətli genişləndirilməsində uğurlar əldə edilmişdir.

2017-ci ilin yanvar-iyun aylarında şəhərdə ümumi daxili məhsul buraxılışının həcmi faktiki qiymətlərdə 405 milyon 760 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə onun həcmi 2,0 faiz artıq olmaqla, 39,7 milyon manat çox məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Əhalinin hər bir nəfərinə düşən ümumi məhsulun həcmi 2016-cı ilin müvafiq dövrünə nisbətən 10,4 faiz artaraq 1 milyon 224 min manat səviyyəsində olmuşdur. Ümumi daxili məhsulun 73,8 faizi qeyri-dövlət bölməsində istehsal edilməklə, ötən ilin altı ayı ilə müqayisədə 4,6 faiz artmışdır. Hesabat dövrü ərzində elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat bölməsinin müəssisələri tərəfindən 2017-ci ilin yanvar-iyun ayları ərzində 9 milyon 477 min manatlıq məhsul buraxılmış və xidmətlər göstərilmişdir. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,3 faiz artım müşahidə edilmişdir. Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində isə 2 milyon 599,5 min manatlıq məhsul buraxılmış və xidmətlər göstərilmiş, əvvəlki ilin müvafiq dövrünə nisbətən 17,1 faiz artmışdır. İstehsal olunan məhsulun 45,4 faizi respublika daxilində, 54,6 faizi Rusiya, Türkiyə, Ukrayna, Belarus, Gürcüstan və digər ölkələrə ixrac olunmuşdur.

Sənayedə çalışan 4 min 920 nəfər işçidən 72,7 faizi emal sənayesində, 19,4 faizi elektrik enerjisi, qaz, buxar istehsalı və təchizatı bölməsində, 7,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində cəmlənmişdir. 2017-ci ilin 6 ayında sənaye kompleksində işləyənlərin sayı 4 min 920 nəfər təşkil etməklə, onların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz artmaqla, əmək haqqı 416,4 manat, o cümlədən qeyri-dövlət bölməsində 417,9 manat olmaqla 2016-cı ilin birinci yarısı ilə müqayisədə müvafiq olaraq 7,5 faiz və 15,3 faiz çox olmuşdur.

Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq son illərdə Gəncə şəhərində aparılan abadlıq-quruculuq istiqamətində görülən işlər şəhər sakinləri tərəfindən rəğbətlə qarşılanır, əhalinin kommunal və digər sosial sahələrdə mövcud olan bir sıra problemləri müsbət həllini tapır. Belə ki, şəhər ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində mərkəzi prospektlərdə, məhəllə daxili ərazilərdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, qəsəbələrarası yollarda və digər infrastruktur sahələrində yenidənqurma və əsaslı bərpa işləri aparılmış və bu istiqamətdə işlər bu gün də davam etdirilməkdədir. Möhtərəm Prezident cənab İlham Əliyevin xeyir-duası ilə təməli qoyulmuş Gəncə Dövlət Filarmoniyasının inşası sürətləndirilib və bu ilin sentyabr ayında istifadəyə verilməsi nəzərdə tutulub.

Ölkədə sahibkarlığın inkişafına yaradılan etibarlı və dayanıqlı dövlət dəstəyinin bariz göstəricisi olan, 25 hektar ərazini əhatə edən, miqyasına görə Qafqazın ən böyük ticarət mərkəzlərindən biri hesab edilən "Gəncə Bazar Store"nin tikintisi sürətləndirilməklə, onun sentyabr ayında açılışı gözlənilir. Burada 4 mindən çox mağaza fəaliyyət göstərəcək və 10 min nəfərin işlə təminatı nəzərdə tutulub. Şəhərin mərkəzi hissəsində əhalinin və eləcə də avtomobillərin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə Heydər Əliyev prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsindəki və Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində yeraltı keçidlərin inşası tamamlanmış və sentyabr ayında əhalinin istifadəsinə verilməsi nəzərdə tutulur.

Ölkə əhalisinin məşğulluq probleminin həlli dövlətin ən çox önəm verdiyi məsələlərdən biri olaraq qalır. Əhalinin məşğulluğunun inkişafına təsir edən investisiya mühitinin yaradılması, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən tədbirlərin həyata keçirilməsi dövlətin məşğulluq siyasətinin prioritet istiqamətlərindən biridir.

2017-ci ilin iyulun 1-i vəziyyətinə görə şəhərdə iqtisadi fəal əhalinin sayı 171 min 800 nəfər olmuş, onlardan 170 min 300 nəfərini iqtisadiyyatın və sosial bölmənin müxtəlif sahələrində məşğul olan əhali təşkil etmişdir. Şəhər üzrə muzdla işləyənlərin 25,1 faizi təhsildə, 23,1 faizi ticarətdə, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,8 faizi sənayedə, 11,0 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 7,6 faizi nəqliyyat və anbar təsərrüfatında, 5,1 faizi dövlət idarəetməsi və müdafiədə, 4,2 faizi istirahət, əyləncə və incəsənət sahəsində, 2,3 faizi peşə, elm və texniki fəaliyyət sahəsində, 3,7 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində, 1,4 faizi maliyyə və sığorta fəaliyyəti sahəsində, 0,8 faizi kənd təsərrüfatında, 0,8 faizi tikintidə, 1,0 faizi informasiya və rabitə sahəsində və qalanı isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2017-ci ilin 6 ayı ərzində rayon Məşğulluq Mərkəzlərinə işaxtaran qismində 2 min 960 nəfər vətəndaş, o cümlədən 875 nəfər qadın müraciət etmişdir. Onlardan 1 min 572 nəfəri və ya 53,1 faizi daimi işlə təmin olunmuşdur. İşlə təmin olunanların 483 nəfərini və ya 30,7 faizini qadınlar təşkil etmişdir. Bu dövrdə mərkəzlər tərəfindən göndəriş əsasında 1 min 221 nəfər dövlət müəssisələrində, 351 nəfər isə qeyri-dövlət müəssisələrində işlə təmin edilmişlər. Hesabat dövrü ərzində işsiz statusu verilmiş işaxtaranların sayı 178 nəfər olmuş, onların da 76 nəfərini qadın təşkil etmişdir. Şəhərimizdə işsizliyə görə verilən müavinətin orta məbləği 290 manata yaxındır. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə ölkə başçısının göstərişinə əsasən 2017-ci ilin birinci yarısında şəhərdə quruculuq və abadlıq işlərinə 652 nəfər, çoxmənzilli binaların təmirində 374 nəfər, idarə və müəssisələrdə 741 nəfər, ümumilikdə 1 min 767 nəfər işlə təmin olunmuşdur. Hesabat dövründə yaradılan 3 min 883 ümumi iş yerinin 2 min 443-ü daimi iş yeri olmaqla, ondan 194-ü yeni, 715-i mövcud, 2 min 500-ü fərdi sahibkarlıq subyektlərində və 440-ı digərlərində yaradılmışdır.

**2017-ci ilin birinci yarısında Gəncə şəhərində yeni açılmış daimi iş yerləri, faizlə**




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində təhsil sistemi ayrı-ayrı sahələr üzrə deyil, bütövlükdə, kompleks şəkildə inkişaf edir. Təhsil ölkəmizdə prioritet sahələrdən biridir və bu zəruri sahənin inkişafına daim xüsusi diqqət yetirilir, bilikli, savadlı gənc nəslin formalaşması üçün hər cür şərait yaradılır. 1076 şagird yerlik Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəb təmirdən sonra şagirdlərin və müəllimlərin istifadəsinə verilmişdir. 280 şagird yerlik İnteqrasiya Təmayüllü İnternat Tipli Gimnaziyanın (Sanatoriya Tipli İnternat məktəbi) tədris korpusunun və yataqxanasının, həmçinin 2 min 140 şagird yerlik 1 nömrəli tam orta məktəbin əsaslı təmir işləri başa çatmaq üzrədir və yeni tədris ilində istifadəyə verilməsi nəzərdə tutulur. Ş.Hüseynov küçəsində yerləşən 120 yerlik 1 nömrəli uşaq bağçasında son tamamlanma işləri aparılmaqla, yaxın günlərdə istifadəyə verilməsi gözlənilir. 240 yerlik 44 nömrəli, həmçinin Məhsəti qəsəbəsində 120 yerlik Körpələr evi-uşaq bağçasının tikintisi davam etdirilməkdədir. Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin I tədris korpusunun (1 nömrəli peşə məktəbi) və şagird yataqxanası, Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin I tədris korpusunun (1 nömrəli Peşə Liseyi) və şagird yataqxanası əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Burada müəllimlərin işləməsi, həmçinin şagirdlərin təlim-tərbiyəsi üçün bütün lazımi şərait yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 10 dekabr tarixli 150 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar hesabat dövrü ərzində təqvim planına uyğun olaraq 54 min 823 uşaqdan 53 min 918 uşaq və ya 98,3 faizi dispanserizasiyaya cəlb edilmişdir. Müayinə zamanı 4 min 720 uşaqdan çox müxtəlif xəstəliklər (tənəffüs sisteminin, qan və qanyaradıcı orqanların, sinir sisteminin xəstəlikləri, görmə orqanının, həzm sisteminin xəstəlikləri) aşkar olunmuş, onlardan 2 min 870-ə yaxın uşaq müxtəlif diaqnozlarla dispanser qeydiyyata götürülmüşdür. Əsas tibbi göstəricilərdən 2017-ci ilin 6 ayı ərzində şəhərdə 2 min 415 körpə doğulmuş və 2016-cı ilin 6 ayı ilə müqayisədə 311 körpə doğuşu və ya 14,8 faiz çox olmuşdur. Eyni zamanda evdə körpə doğuşlarının sayı 12-dən 2-dək, yeni, 10 hadisə azalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı sayəsində Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi istiqamətində tədbirlərin həyata keçirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Şəhərin mərkəzində yerləşən XVII əsr tarix-memarlıq abidəsi olan "Şah Abbas" və "Uğurlu xan" karvansaralarının əsaslı təmir və bərpası, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin muzeyinin yaradılması, Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin adını daşıyan parkın salınması işləri sürətləndirilmiş və sonuncu iki obyektin cari ildə istifadəyə verilməsi nəzərdə tutulur.

İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, olimpiya ideyalarının təbliği, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi və digər tədbirlər nəticəsində ölkəmiz beynəlxalq tədbirlərin uğurla keçirildiyi məkana çevrilmişdir. Şəhərdə idmanın inkişaf etdirilməsi, yeniyetmələrin və gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması şəhər İcra Hakimiyyətinin daim diqqət mərkəzində saxlanılmışdır.

Cari ilin 6 ayı ərzində şəhərimizin 438 idmançısı 37 müxtəlif idman növündə 29 Respublika və 4 Beynəlxalq, 2 Avropa, 1 Dünya yarışlarında, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında iştirak etməklə 119 medal qazanmışdır. Onlardan 44-ü qızıl, 35-i gümüş, 40-ı bürünc medal olmuşdur.

Hesabatdan göründüyü kimi, şəhərimizdə sosial-iqtisadi inkişaf ilə əlaqədar böyük işlər görülür. Cənab Prezidentin şəhərimizə olan böyük diqqət və qayğısı sayəsində abadlıq-quruculuq işlərinin həcmi daha da geniş vüsət almış, yeni infrastruktur layihələri uğurla həyata keçirilir.

Çıxışının sonunda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev əminliklə bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıq və göstərişləri bundan sonra da daha məsuliyyətlə çalışmaqla, bütün qüvvə və səylərini sərf etməklə dövlətimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsinə öz töhfələrini verəcəklər.





**Zabit XƏLİLOV,**
**"Respublika".**